# “Bir daraq gülləni babamın başına boşaltdı”



→ 10

Azərbaycan.- 2023.- 4 avqust.- S. 1; 10.

# “Bir daraq gülləni babamın başına boşaltdı”

**Qarabağda tökülən qanlar, edilən bütün vəhşiliklər Ermənistanın birbaşa Azərbaycana təcavüzü nəticəsində baş verib. İnsanlığa yaraşmayan bütün vəhşiliklərin planı İrəvanda hazırlanıb, Qarabağda terrorçular, separatçılar tərəfindən icra olunub.**



*Ramil Ramiz oğlu Sadıqov*



*Əvəz və Qönçə Sadıqovlar*

Məlum məsələdir ki, Qarabağda yaşayan azsaylı erməni icması Ermənistandan silahlı dəstək almasaydı, Qarabağda qanlı cinayətlər törətməyə gücləri yetməzdi. Elə bu gün də Ermənistan bədnam niyyətini həyata keçirmək üçün məqam gözləyir. Sülh danışıqları prosesini uzadıb revanş götürmək üçün vaxt qazanmağa çalışır. Ermənistan dövlət səviyyəsində yüzlərlə qadını, uşağı amansızlıqla qətlə yetirmiş, əsir və girova amansız işgəncə vermiş terrorçu Vaqif Xaçaturyanı dəstəkləməklə bir daha terrorçu dövlət olduğunu açıq şəkildə nümayiş etdirir. Əfsuslar olsun ki, dünyanın bəzi dövlətləri, özlərini beynəlxalq təşkilat adlandıran qurumlar əli yüzlərlə insanın qanına bulaşmış bir qatili müdaifiə etməyə cəhd edirlər. Unudurlar ki, Birinci Qarabağ savaşından hələ uzun illər keçməyib. Ortalıqda faktlar, sübutlar, canlı şahidlər var. Vaqif Xaçaturyanın azərbaycanlı əsirlərə, girovlara etdikləri zülmün acısını çəkən insanlar həyatdadırlar və onlar bu qatili yaxşı tanıyırlar.

Meşəli kənd sakini Vəli Əliyar oğlu Vəliyev deyir ki, Vaqiflə Qarabağda separatçılıq hərəkatı başlanan ilk günlərdən tanışıq. 1988-ci il idi. Üç həmkəndli birlikdə Xocalıya gedirdik. Ermənilər həmin gün Badara kəndindən keçən yolda hərbi post qoyub, gəlib-gedəni saxlayırdılar. Postun komandiri Vaqif Xaçaturyan idi. Maşınımızı saxlayıb bizi özlərinin yaratdığı qərargaha apardı. İlk sözü də bu oldu ki, maşını bizə verin, bizə "Niva"markalı maşın lazım olacaq. Vaqif orada bizi öldürmək istəyirdi. Əslən Badaradan olan bir nəfər qanımızın arasına girdi. Rəfini, Nəsiri, məni Vaqifin əlindən xilas etdi. Sonra mən ikinci dəfə - 23 dekabr 1991-ci ildə Vaqiflə kəndimizdə qarşılaşdım. Kəndimizdə soyqırımı törədən dəstəyə Vaqif başçılıq edirdi. O hadisəni təsvir etməyə gücüm çatmır. Meşəli hadisəsini törətməklə sanki ermənilər Xocalı faciəsinə hazırlıq gördülər. Əlimizdən ov tüfənglərini almışdılar. Ermənilər isə müasir silahlarla tam silahlanmışdılar. Sovet hökumətinin vaxtında onların bu qədər silahı haradan almaları özü təəccüblü idi. 28 nəfər silahsız, günahsız kənd sakinini qətlə yetirdilər.

Vaqifin əlində səsgücləndirici var idi. Rus dilində danışırdı. Azərbaycan dilini də təmiz bilirdi. Novruz kişini 5 nəfər ailə üzvü ilə birlikdə öldürüb evinin içində yandıran da Xaçaturyan olmuşdu. Vaqif amansızlıq edirdi. Şəhidlərimizi tanınmaz hala salırdı. Qulağını, burnunu kəsir, başının dərisini soyurdu. Onun dediklərini etməyən əsirin üstünə benzin töküb diri-diri yandırırdı...

Meşəli kəndinin başqa bir sakini Məzahir Xəlil oğlu Kazımov da Birinci Qarabağ savaşı zamanı amansız hərəkətləri, vəhşilikləri ilə o zaman ad çıxarmış qatil Vaqif Xaçaturyan barədə danışdı. Dedi ki, Vaqifi də, onun qardaşı İlyanı da lap əvvəldən tanıyırdım. Vaqifin qardaşı İlya Badara - Xankəndi marşrut avtobusunu sürürdü. Sonradan hər iki qardaş Qarabağda törədilən cinayətlərin fəal iştirakçısı, azərbaycanlılara qarşı törədilən vəhşiliklərin müəllifləri oldular. Məzahir əlavə etdi ki, Badara kəndinin sakinləri Qarabağda yaşayan digər ermənilərdən azərbaycanlılara olan xüsusi nifrətləri ilə seçilirdilər. Bu kənddə yaşayan qadınlı-kişili - bütün sakinlər əsl daşnak idilər. Hər cür vəhşiliklər etmək üçün sanki bir-biri ilə bəhsə girmişdilər. Elə bil kim daha çox vəhşilik edə bilər, onu göstərməyə çalışırdılar.

23 dekabr 1991-ci ildə Vaqif Xaçaturyanın iştirakı ilə kəndimizə hücum oldu. Mən kəndin başqa tərəfində mövqe tutub döyüşürdüm. Ermənilər tərəfdən basqına Aramis və Erenest qardaşları başçılıq edirdilər. Kəndin digər tərəfindən olan hücuma isə Vaqif rəhbərlik edirdi. Elə ən çox vəhşilik, zülm də həmin yerdə baş vermişdi. Vaqif Xaçaturyan həmkəndlilərimiz Tahiri, Novruz kişini ailəliklə, Əvəz kişini yoldaşı Qönçə ilə xüsusi amansızlıqla qətlə yetirmişdi.

Vaqif Xaçaturyanın şəxsən əsir götürdüyü Ramil Ramiz oğlu Sadıqov bizə başına gələn və gördüyü dəhşətli faciədən danışdı:

- 1981-ci il avqustun 5-də Ağdam şəhərində anadan olmuşam. Nənəmin, babamın ilk nəvəsi olduğum üçün məni babamgil Meşəlidə, öz yanlarında saxlayırdılar. 1991-ci ilin 23 dekabrı idi. Səhər saat 9-10 olardı. Ermənilər kəndə silahlı hücum etdilər. Babam gəldi ki, ermənilər camaatı qırır, durun sizi arxa tərəfdən çıxarım, bəlkə sağ qaldınız. Elə bu zaman pəncərədən atılan güllə babamı başından yaraladı. Güllə babamın başını sıyırmışdı, qan axırdı. Nənəm babamın başını sarıdı. Biz qapıdan çıxanda Vaqif Xaçaturyan gülləni yağış kimi üstümüzə yağdırdı. Babamın, nənəmin əlində silah yox idi. Vaqif məni vurmaq istəyirdi, babam mənə güllə dəyməsin deyə özünü üstümə atdı. Bütün güllələr babama dəydi. Gözünü qan örtmüş bu qatil avtomatın darağını dəyişib gözümün qarşısında bir daraq gülləni babamın başına boşaltdı. Bununla ürəyi soyumadı, nənəmi də öldürdü (Ramil Əvəz və Qönçə Sadıqovların nəvəsidir). Məni meyitin altından çıxarıb darta-darta gətirib Rəfi dayının "Niva"sına mindirib qapısını bağladı. Sonra nənəmlə babamı evin içinə ataraq od vurdu. Yolboyu öldürülmüş, yandırılmış cəsədlərin yanından keçib gedirdik. Dəhşət idi. Dişlərim bir-birinə kilidlənmişdi, əsirdim. Məni əsirlərin toplaşdığı yerə gətirdilər. Vaqif orada da tanımadığım adamları, əsirləri gözümün qarşısında güllələdi. Məni də öldürmək istədi. Lakin Qrişa adlı bir yaşlı erməni kişi var idi. Bənna idi. Bizim kənddə çox adamın evini o tikmişdi. O, mənə yaxınlaşıb kimlərdən olduğumu soruşdu. Babam Meşəli kəndinin sayılıb-seçilən kişilərindən idi. Onu hamı yaxşı tanıyırdı. Əvəz Sadıqovun nəvəsi olduğumu dedim, babamı tanıdı. Dedi ki, qorxma, səni Vaqifdən alıb özümlə götürəcəyəm. Sonra bir şey fikirləşərik.



Vaqif vəhşiliklərinə şahidlik edən olmasın deyə məni də öldürmək istəyirdi. Qrişa kişi özünü qabağa verib dedi ki, "uşağa dəymə. Azərbaycanlılar mənim qohumumu öldürüb. Aparıb bunu onlara verəcəyəm, qoy bunu onlar öldürüb qisaslarını alsınlar. Bəlkə ürəkləri onda sakitləşər". Beləliklə, Qrişa kişi məni evələrinə gətirdi.

Valideynlərim nənəm və babamla birlikdə məni də ölmüş bilmişdilər. Babamın evindən tapdıqları yanmış cəsəd qalıqlarının bir hissəsini də mənimki bilib dəfn edib, mənə də yas tutmuşdular. Sağ qaldığımdan xəbərsiz idilər. Mən bu hadisədən 7 gün sonra Badara kəndində olan rus əsgərlərinə məktub verib valideynlərimə çatdırmalarını xahiş etdim. Yanvarın 18-də "Qatır Məmməd" ləqəbli Yaqub dayı 3 erməni verib məni əsirlikdən azad etdi.

Vaqifi televizorda görən kimi tanıdım. Bir daraq avtomat gülləsini babamın başına doldurarkən ləzzət alıb necə ürəkdən qışqırdığı an gözlərim önündə canlandı. Düzünü deyim ki, bu qatili bir də görəcəyimə, onun haqq etdiyi cəzanı alacağına heç inanmırdım. Vaqif Xaçaturyanın həbsi İlahi ədalətin qələbəsidir. Ordumuzla, sərhədçilərimizlə qürur duydum.

Ermənilərin "humanist"liyinin siması, necə məzlum olduqlarının göstəricisi Vaqif Xaçaturyan indi əlimizdədir. Sözsüz ki, Vaqif Xaçaturyan əmr aldığı, göstərişlərini canbaşla yerinə yetirdiyi digər cəlladların adını da məhkəmədə bir-bir açıqlayacaq. Elə Ermənistanda oturub Xaçaturyanı müdafiə edənləri də qorxudan budur. İndi Vaqifin dirisi bizə, ölüsü isə ermənilərə daha çox sərf edir...

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*